UOT-811.512.162
Səhifə: 30-41
https://doi.org/10.59849/2663-8967.2026.2.30

Fizuli Mustafayev
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya elmləri doktoru
mustafayev.fizuli8@gmail.com

KİNO DİLİNDƏ MORFOLOJİ ÜSULLA YARANAN ONOMASTİK VAHİDLƏR

XÜLASƏ

Məqalə kino dilində morfoloji üsulla yaranan onomastik vahidlərə həsr olunub. Araşdırmadan məlum olur ki, onomastik vahidlərin morfoloji üsulla, yəni kök və şəkilçi əsasında əmələ gəlməsinə dair müxtəlif fikirlər vardır. Bu fikirlərdə xüsusi ad düzəldən şəkilçilərin olub-olmaması məsələsində mübahisələr hökm sürür. Qeyd edilir ki, belə bir yanlış meyl vardır ki, toponimlərin əmələ gəlməsi tamamilə sırf leksik və semantik hadisələrlə bağlıdır. Burada heç bir morfoloji amil rol oynamır.

Məqalənin bir yerində toponimlərin deyil, başqa onomastik vahidlərin yaranmasında dilimizdəki şəkilçilərin rolunu araşdırmaq, onların yaratdıqları məna çalarlarını nəzərdən keçirmək müasir dilçiliyimizin ümdə vəzifələrindən sayılır.

Tədqiqatdan göründüyü kimi, oykonimlərin 80 faizə qədəri, yəni 66 faizi -lı (-li, -lu, -lü), 18-i, 15 faizi isə -lar (-lər) şəkilçiləri vasitəsilə düzəldilmişdir. Bu fakt göstərir ki, həmin şəkilçilər dilimizin onomastik leksikasında da məhsuldar rola malikdir. Əldə olan dil faktlarının araşdırılması göstərir ki, Azərbaycan onomastik sistemində xüsusi adların tərkibində kifayət qədər şəkilçi iştirak edir. Araşdırma zamanı məlum olur ki, müxtəlif tipli şəkilçilər dilimizin ümumi leksik sistemində məhsuldar söz yaradıcılığı daşıyan onomastik vahidlərin əmələ gəlməsində fəal rol oynayır. Xüsusi ad yaradan formant kimi həmin şəkilçilərə türk dilləri arealında, xüsusilə həmin arealın cənub-qərb hissəsində daha çox rast gəlinir. Məqalədə kifayət qədər elmi və bədii ədəbiyyat, həmçinin müxtəlif monoqrafiyalardan istifadə edilmişdir.

Açar sözlər: *onomastika, morfoloji, leksik-qrammatik, orfoepik, sintaktik, semantik.*

Giriş: Türkoloji dilçilikdə onomastik vahidlərin morfoloji üsulla, yəni kök və şəkilçi əsasında əmələ gəlməsinə dair müxtəlif fikirlər vardır. Bu fikirlərdə xüsusi ad düzəldən şəkilçilərin olub-olmaması məsələsində mübahisələr hökm sürür. Fikrimizcə, kino dilində mövcud olan leksik və leksik-qrammatik şəkilçilərin bir qismi xüsusi ad düzəltməkdə iştirak edir. Daha doğrusu, belə bir fikir yürütmək olmaz ki, xüsusi ad əmələ gəlməsində heç bir şəkilçi iştirak etmir. Azərbaycan dilçiliyində belə bir yanlış meyl vardır ki, toponimlərin əmələ gəlməsi tamamilə sırf leksik və semantik hadisələrlə bağlıdır.

Müəyyən bir toponimə çevrilmiş söz ona qədər kök və şəkilçi şəklində mövcud olmuşdur. Şübhəsiz, bu fikirdə də həqiqət vardır. Lakin toponim yaradıcılığında sözdüzəldici şəkilçinin rolunu tamamilə inkar etmək səhv elmi nəticələrə aparıb çıxara bilər. Çünki kino dilində elə faktlara rast gəlinir ki, orada mütləq toponim düzəldən xüsusi şəkilçinin varlığını təsdiq etmək lazım gəlir. Məsələn, Saatlı, İmişli, Qaradonlu, Xəlfəli, Dəllər, Seyidlər, Sarıcalı, Qışlaq və s. kimi toponimlərin derivatoloji təhlili onların *-lı (-li, -lu, -lü), -lar, -lər* şəkilçiləri vasitəsilə yarandığını sübuta yetirir. Bu sözlərin toponim kimi çıxış etməsində həmin şəkilçilərin rolu əsasdır. Buna görə də *"...təkcə toponimlərin deyil, başqa onomastik vahidlərin yaranmasında da dilimizdəki şəkilçilərin rolunu araşdırmaq, onların yaratdıqları məna çalarlarını nəzərdən keçirmək müasir dilçiliyimizin ümdə vəzifələrindəndir"* [1, s. 20]. Nümunə üçün Ağdam rayonunun əvvəlki yaşayış

məntəqələrinin adlarına nəzər salaq. Burada 120 oykonimdən 102-nin tərkibində sözdüzəldici şəkilçi vardır:

a) *-lı (-li, -lu, -lü)* şəkilçisi ilə düzələnlər: *Qarazeynal+lı, İsmayılbəy+li, Pirzad+lı, Şayba+lı, Boyəhməd+li, Sofu+lu, Salah+lı, Kəngər+li, (iki kənd adı), Qızıl Kəngər+li, Qaradağ+lı (üç kənd adı), Mahrız+lı, Zərgisa+lı, Qasım+lı, Sel+li, Polad+lı, Əlimərdan+lı, Muradbəy+li, Əhmədağa+lı, Mirəşel+li, Çırax+lı, Qiyas+lı, Ətyetmə+li, Keştaz+lı, Quzan+lı, Eyvaz+lı, Gül+lü, İmanqulubəy+li, Əliməmməd+li, Xaçındərbənd+li, Çin+li, Əliağa+lı, Əfət+li, Hacıməmməd+li, Hacıtura+lı, Qəhrəmanbəy+li, Həsənxan+lı, Küdür+lü, Məmmədbağır+lı, Abdın+li, Cavahir+li, Qaraqaş+lı, Şirvan+lı, Gülab+lı, Tağıbəy+li, Maqsud+lu, Eyvazxanbəy+li, Tükəzban+lı, Mərzi+li, Nəmir+li, Soltan+lı, Umud+lu, Novruz+lu, Yusifkan+lı, Acar+lı, Qarapirim+li, Seyid+li, Sarıhacı+lı, Alıbəy+li, Yusif+li, Kiçik+li, Böyükbəy+li, Bahar+lı* (iki kənd adı), *Xıdır+lı, Kəlbəhüseyn+li, Dadaş+lı, Paşabəy+li, Birinci Yüzbaşı+lı, İkinci Yüzbaşı+lı, Çəmən+li, Şükürağa+lı, Şıxbaba+lı, Muğan+lı* (iki kənd adı).

b) *-lar, -lər* şəkilçisi ilə düzələnlər: *Qul+lar, Bağban+lar, Molla+lar, Rza+lar, Pərioğlu+lar, Şıx+lar, Kürd+lər, Qalayçı+lar, İsa+lar, Kosa+lar, İlxıçı+lar, Talış+lar, Şişpapaq+lar, Bozpapaq+lar, Balı+lar, Bəybaba+lar*.

Adları çəkilən oykonimlərin ən azı 30 faizinə bədii və sənədli televiziya filmlərində rast gəlmək mümkündür.

"Komandir: – Drakon! Sənə tapşırıram: axşam 18-dək *Qarazeytunlu, İsmayılbəyli, Pirzadlı, Şaybalı, Boyəhmədli, Safulu, Salahlı, Kəngərli, Poladlı, Əlimərdanlı, Qarabağlı, Şelli, Qasımlı, Muradbəyli, Mirəselli, Çıraxlı, Qiyaslı, Kestazlı və Qazaxlı* kəndlərinin döyüş mövqelərinə əlavə qüvvələr göndərin.

Drakon: – Yoldaş komandir, həmin məntəqələrdə silah da çatışmır" ["Dolu", 2012].

"Girov: – Bilirəm, günahım çoxdur. Rabitə ötürücüsündə olan *Eyvazlı, Güllü, İmanqulubəyli, Çinli, Qəhrəmanbəyli, Həsənxanlı, Küdürlü* və *Məmmədbağırlı* kəndlərinin adlarını dərhal məruzə etməliydim.

Sona: – Bəs nə oldu?" ["Girov", 2003].

"Nurcabbar: – Deməli, İdrisov ləyaqətli atadı. Anası *Mərzilidən*, atası isə *Qaraqaşlı* kəndinin *Şirvanlı* məntəqəsindən idi".

Bağır: – Bilirəm oğluna da *Gülablıdan* qız alıb" ["Qoca palıdın nağılı", 1984].

"Sədr: – Nəvə-nəticə deyəndə ki, var da... Orasın düz deyirsiz. Axtarsan *Cavahirlinin də Abdınlının* da, hətta o biri kənd varee *Tağıbəylini* deyirəm, hamısı Əziz kişinin törəməsi-zadı çıxar.

Müxbir: – Bəli, əladı! Hər şey bəlli oldu" ["Babamın babasının babası", 1979].

"Nənə: – Bu qönçədir. Yalnız bizim kənddə *Eyvazxanbəylidə* yetişir. Geniş düzənlikləri, ağ buludları var. Sanki, uzaqlarda səma ilə yer birləşir.

Buta: – Nənə, bəs deyirlər *Tükəzbanlıda* da var..." ["Buta", 2004].

"Kərim: – Səlimdə günah yoxdu, Sona, vallah günah yoxdu. O boyunbağını Mərzilidən gəldiyi üçün istəyir. Görürsənmi, nə *Soltanlının,* nə də *Nəmirlinin* adını çəkmir".

Sona: – Deməli, boyunbağını almağa gəlmisən? ["Süd dişinin ağrısı", 1987].

"Sarışın: – Yuxudan durub deyir , bura haradı?

Cəlil: – Əlbəttə, dədə-baba kəndlərinin adların bilməzsən də... *Umudlunu, Novruzlunu, Yusifxanlını* deyirəm dana" ["Neft və milyonlar səltənətində", 1982].

Bəhman: – Bəs indiyənəcən kəndimizə getmisən?

Xəlil: – *Açarlıda* nə işim var mənim, orada kimim var ki? Atamın-anamın kəndlərinə gedirəm. *Qarapirimliyə də, Seyidliyə də*" ["Küçələrə su səpmişəm", 2004].

"Abbas: – Orxan, səni *Sarıhacılı* kənd məktəbinə göndərərik.

Orxan: – Bəs Vəfa?

Abbas: – Vəfanı da, *Alıbəyli* məktəbinə" ["Qırmızı bağ", 2011].

Filmlərdən göstərilən hər bir oykonim *-lı (-li, -lu, -lü)* və *-lar, -lər* şəkilçilərinin köməyi ilə düzəldilmişdir.

c) *-ıstan* şəkilçisi ilə düzələnlər: *Xıdır+ıstan.*

Göründüyü kimi, rayonun ərazisindəki oykonimlərin 80-ə qədəri, yəni 66 faizi *-lı (-li, -lu, -lü)*, 18-i, yəni 15 faizi isə *-lar (-lər)* şəkilçiləri vasitəsilə düzəlmişdir. Beləliklə, Azərbaycan dilinə məxsus 120 oykonimdən 81 faizi şəkilçi vasitəsilə düzəlmişdir. Bu fakt göstərir ki, həmin şəkilçilər dilimizin onomastik leksikasında da məhsuldar rola malikdir. *"Əldə olan dil faktlarının araşdırılması göstərir ki, Azərbaycan onomastik sistemində xüsusi adların tərkibində kifayət qədər şəkilçi iştirak edir"* [2, s. 3].

1. -lıq (-lik, -luq, -lük) şəkilçisi

Azərbaycan dilində bu şəkilçi məhsuldar şəkilçilər qrupuna daxildir. S.Cəfərov həmin şəkilçinin on bir məna qrupunda birləşən adlar düzəltdiyini qeyd edir [3, s. 173]. Lakin o, nədənsə, həmin şəkilçinin xüsusi ad yaratdığını göstərmir. Halbuki Azərbaycan onomastik sisteminin tərkibində həmin şəkilçi iştirak edən yüzlərcə, toponimə rast gəlmək mümkündür. Bu sahədə tədqiqat aparmış S.Mollazadə Azərbaycanın şimal rayonlarının toponimik sistemində həmin şəkilçinin geniş yayıldığını və qədimliyini qeyd edir [4, s. 76]. Özü də demək lazımdır ki, həmin şəkilçi ancaq toponimlərin tərkibində işlənir, onlara başqa xüsusi adlar qrupunun tərkibində təsadüf edilmir. Bu şəkilçi tərkibində işləndiyi toponimin mənasında müəyyən bir çoxluq ifadə edir. Məsələn, *Alma+lıq, Bala Şam+lıq, Zoğal+lıq, Qarakol+luq, Qarğa+lıq, Darı+lıq, Zəy+lik, Gül+lük, Maş+lıq, Saman+lıq, Xına+lıq, Soğan+lıq* və s.

Kinofilmlərdən uyğun misallar təqdim edək.

"Sədr: – Təhməz, *Almalıq* və *Balşamlıqdan* gələn arabaları qaytarın.

Təhməz: – Öküzlər necə olsun.

Sədr: – Onları da *Zoğallıq* kəndinə təhvil verin" ["Qəzəlxan", 1991].

"Səlim bəy: – Cənab Slavoçinski, əmr ver, qoşun *Qarakolluq, Qarğalıq, Darılıq* və *Zəylik* kəndlərinə çox dürtülməsin. Gözləyək patronları qurtarsın.

Sədr: – Birdən qaçıb aradan çıxdılar?

Səlim: – Qaça bilməzlər, bütün keçidlər tutulub. Bircə *Güllük* və *Maşlıq* kəndlərindən başqa" ["Qaçaq Nəbi", 1980].

"Məsmə arvad: – Gedək evə *Samanlıqdan* gələn var.

Əlabbas: – Sən get, mən də bir azdan gəlirəm" ["Yuxu", 2001].

Misallardan göründüyü kimi, *-lıq* şəkilçisinin əmələ gətirdiyi çoxluq mənası Azərbaycan toponimik sistemində daha xarakterik hal almışdır.

Bundan başqa, həmin şəkilçi Yuxarı Ara+lıq, Aşağı Ara+lıq, Düzən+lik, Gen+lik və Şən+lik oykonimlərin tərkibində işlənməklə yaşayış məntəqəsinin yönünü, səmtini, Bəy+lik, Xan+lıq, Şah+lıq oykonimlərinin mənşəyini, yəni keçmişdə oranın kimə mənsub olduğunu bildirir. Məsələn:

"Ağca xala: – Götür, dədənin malı deyil, nə *Yuxarı Aralıqdan* gətirmisən, nə də *Aşağı Aralıqdan.*

Qasım: – Hə, mənim qaçaqlarım, sabah fermanın malı *Düzənlik* kəndinə gedəcək" ["Kişi sözü", 1985].

"Xalid: – Hə. Hamıynan dostluq eləyir. *Bəylik, Xanlıq* və *Şahlıq* kəndlərinin adamları hər gün onunla bir yerdədirlər.

Baba: – Fikir eləmə. Hələ ömür qabaqdadı. O qədər dostların olacaq ki. Yaxşısı budu, bu kitabı oxu" ["Dərs", 2015].

Ümumiyyətlə, bu şəkilçinin təkcə oykonimlərin deyil, oronimlərin tərkibində işləndiyini ətraflı şəkildə araşdırsaq, onun dilimizdəki mövqeyini daha dəqiq müəyyənləşdirməyə nail ola bilərik. *"...Bu cəhətdən nəinki onomastik leksikamızın, bütövlükdə müasir Azərbaycan dili leksikasının derivatoloji araşdırılmasına çox böyük ehtiyac vardır. Ümumi türkoloji dilçilik nümayəndələri bu mühüm cəhətə toxunur və haqlı problemlər qaldırırlar"* [5, s. 104].

2. *-lı (-li, -lu, -lü) şəkilçisi.*

"Dilimizin ümumi leksik sistemində məhsuldar söz yaradıcılığı funksiyası daşıyan bu şəkilçi onomastik vahidlərin əmələ gəlməsində də fəal rol oynayır. Xüsusi ad yaradan formant kimi həmin şəkilçiyə türk dilləri arealında, xüsusilə həmin arealın cənub-qərb hissəsində daha çox rast gəlinir" [6, s. 153].

"S.Cəfərov həmin şəkilçinin 6 məna qrupuna malik söz əmələ gətirdiyini qeyd edir" [3, s. 176]. Şübhəsiz, bu söz qruplarının sayını daha da artırmaq olar. Lakin bizim üçün maraqlı cəhət *-lı (-li, -lu, -lü)* şəkilçisinin dilimizin onomastik sistemində tutduğu mövqeyi araşdırmaqdır.

Bu şəkilçi Azərbaycan dilinin onomastik sistemində, təxminən aşağıdakı mənalarda işlənir.

"Əlibəy: – Maşallah olsun Şeyxin elminə! Malades! *Həsənlidən* gələnlər də bəyəndilər.

Heydər ağa: – Maşallah, qəribə danışır. Lap Allah vergisidir" ["Ölülər", 1980].

"İbiş: – Elədi, nəçənnik. Gizli yolları bircə *Eyvazxanbəylidən* idi, o da bizim əlimizdədi. Arxası da buzlu sıldırımdır.

Səlim bəy: – Yuxarıda atışma qızışmışdı" ["Qaçaq Nəbi", 1980].

"Qərib: – Bunları gözbağlıca yox, ağıl, hünər və zəhmət yaratmışdır, şah!

Akşad: – Gəlsənə ağılla zəhmət bir möcüzə yaradır. Sarayımın yaxınlığında bir kənd var, *Kəngərli*" ["Qərib cinlər diyarında", 1977].

Diqqət yetirək:

1. Mənsubiyyət bildirir. Məsələn: *Həsən+li, Əli+li* (Həsənə, Əliyə mənsub qohumluq), *Eyvazxanbəy+li* (Eyvazxan bəyə mənsub yer, rəiyyət), *Düyər+li, Kəngər+li* (Tikər, Kəngər tayfalarına mənsub).

2. Müəyyən bir ərazidən gəlməni bildirir. Məsələn: *Bahar+lı* (Xorasanda orta əsrlərdə mövcud olan Bahar əyalətindən gəlmə). *Masal+lı* (Cənubi Azərbaycanda olan Masal mahalından gəlmə).

"Sədr: – Mirzə Qədeş, buyur, bu təzə mətndir...

Qoca aktyor: – Əşi, özündən şey çıxartma, elə oynadığınız yaxşıdır də, *Baharlıdan* gələn də onu oynayırdı" ["Qəzəlxan", 1991].

3. Müəyyən peşəyə, sənətə məxsusluq bildirir. Məsələn: *Bağban+lı, Dəllək+li, Baqqal+lı* və s. Araşdırmalar göstərir ki, bu şəkilçi vasitəsilə onomastik söz yaradıcılığında ən çox şəxs adları, familiya, tayfa adları, yer adları əmələ gəlir.

"Şeyx Nəsrullah: – Ağayi-mən, bu vilayətdə sizdən savayı əcnəbi dərsini oxuyan vardır, yainki elə iki nəfərsiniz?

Heydər ağa: – Bəli, şeyxanə, bir biz, bir də *Dəlləkli* və *Baqqallıdan* gələn möminlərdir" ["Ölülər", 1980].

1. *Antroponimik vahidlər*. Dilimizin antroponimik sistemində *-lı (-li, -lu, -lü)* şəkilçisi vasitəsilə, əsasən, qadın adları və familiya əmələ gəlir. Məsələn: *tel+li>Telli, gül+lü>Güllü, bal+lı>Ballı, naz+lı>Nazlı, sev+gi+li>Sevgili, (qadın adları), Həsən+li>Həsənli, Əli+li>Əlili, Kəsəmən+li>Kəsəmənli, Bahar+lı>Baharlı* və s.

"Xalid: – Sağ ol baba, doğrudan da maraqlıdır. Görəsən *Güllü* və *Ballı* adlarının mənaları nədir?

Baba: – Oxusan öyrənərsən" ["Dərs", 2015].

"Ələmdar: – Uşağa ağ xalat yaraşır ha…

Nübar: – Hə, *Həsənlidən* gələn də onu deyirdi. Ona al da yaraşır, şal da" ["Kişi sözü", 1985].

Bəzi hallarda ənənəvi kişi adlarından əlavə, dilimizdə qəribə adlara da rast gəlinir. Həmin adlar içərisində *-lı (-li, -lu, -lü)* şəkilçisi ilə düzələnlər də vardır. Məsələn: *pul+lu>Pullu, uğur+lu>Uğurlu, nəzir+li>Nəzirli* və s.

"Qərib: – Bu ki, sənin öz əlində çox asan işdir. *Nəzirli* də, *Uğurlu* da sənə bənzəyir.

Akşad: – Sehirlə yaranan hər şeyin ömrü az olur. Mən isə insanın ağlıyla yaranan həmişəlik göl istəyirəm" ["Qərib cinlər diyarında", 1977].

2. *Toponimik vahidlər:* Toponim yaradıcılığında haqqında danışdığımız şəkilçi "sifət+isim" modelini əmələ gətirir. Məsələn, *adna+lı>Adnalı, alma+lı>Almalı, alça+lı>Alçalı, armud+lu>Armudlu, aşıq+lı>Aşıqlı, noxud+lu>Noxudlu, çəmən+li>Çəmənli, baqqal+lı> Baqqallı, bağban+lı>Bağbanlı, bar+lı>Barlı, ərik+li>Ərikli* və s.

Filmlərdən misallara müraciət edək.

"Abbas: – Orxan, səni təzə məktəbə göndərərik... Bakıya... *Adnalı, Ağçalı, Almalı* kəndlərinin uşaqları da sənin**lə** gedəcək. Orda dəniz də var... Uşaqlarla çimərsən... Çoxlu dostların olar... Oynayarsız....

Orxan: – Bəs Vəfa?

Abbas: – Biz hər həftə Vəfa ilə sənə baş çəkəcəyik" ["Qırmızı bağ", 2011].

"Bəhmən: – Gülxar xalamı da əmimlə atamın yanında basdırdıq. Bütün *Noxudlu, Çəmənli* və *Baqqallı* camaatı yasda iştirak etdi. Üçüncünün də qəbrini düzəltdirmişəm. Şəhərdən mərmərdən baş daşı yondurub aparmışam" ["Küçələrə su səpmişəm", 2004].

Dilimizin morfoloji sistemində həmin sözlər misalların birinci tərəfindən verdiyimiz sifətin əlamət və xüsusiyyətlərinə uyğun gəldiyinə görə sifət kimi təhlil olunur. Həmin sözlərin olduğu kimi, substantivləşərək xüsusi ada çevrilməsi məsələsi dilçilikdə mübahisəlidir. Belə güman etmək olar ki, xüsusi ad yaradılması prosesində həmin söz və şəkilçilər yenidən birləşərək onomastik vahid əmələ gətirmişdir. Məsələnin bu cür izahı, əvvəla, ağlabatandır, ikincisi, bu yolla mübahisəyə son qoyula bilər.

3. *Etnonimik vahidlər.* Etnonimlərdə *-lı (-li, -lu, -lü)* şəkilçisinin varlığı onun qədimliyini sübuta yetirir. Məsələn, *qara+qoyun+lu>Qaraqoyunlu, ağ+qoyun+lu>Ağqoyunlu, Xəlifə+li> Xəlifəli, Əhməd+li>Əhmədli, köç+ər+li>Köçərli, çin+li>Çinli, bal+ta+lı>Baltalı, kəngər+li> Kəngərli* və s.

"Ümumiyyətlə, zəngin dil faktları *-lı (-li, -lu, -lü)* şəkilçisinin dilimizdə xalis formant kimi çıxış etdiyini bir daha təsdiq edir. Azərbaycan toponimləri içərisində 1060-nın tərkibində bu şəkilçi iştirak edir" [7, s. 112].

3. *-çı(-çi, -çu, -çü) şəkilçisi.*

Azərbaycan dilində bu şəkilçi, əsasən, peşə, sənət anlayışını bildirən leksik şəkilçi kimi tanınır. Məsələn: *çəkmə+çi, kömür+çü, neft+çi, qazma+çı, təyyarə+çi, üzüm+çü, pambıq+çı, tarix+çi, ədəbiyyat+çı* və s.

Lakin onomastik leksikada da bu şəkilçi məhsuldar onoformant kimi çıxış edir. Məsələn: *araba+çı>Arabaçı, axta+çı>Axtaçı, bıçaq+çı>Bıçaqçı, dəmir+çi>Dəmirçi, ələk+çi>Ələkçi, kəpənək+çi>Kəpənəkçi, gomuş+çu>Gomuşçu, üzüm+çü>Üzümçü, şorba+çı>Şorbaçı, ilxı+çı> İlxıçı, top+çu>Topçu, çanax+çı>Çanaxçı* və s.

Müxtəlif kinofilmlərdə də belə toponimlərə tez-tez rast gəlmək olur.

"Cəlil: – Hə, kefin istəsə onu da çağırtdırarıq.

Lütvəli bəy: – Bəs adı nədi?

Cəlil: – Heç bilirəm, sarışın olduğu üçün hamı Sarışın deyir ona. Bircə onu bilirəm ki, *Arabaçıdan* da istəyirdilər onu, *Axtaçıdan* da, hətta *Dəmirçidən* də" ["Neft və milyonlar səltənətində", 1982].

"Qaraşad: – Başıma daş, bu şah hər sirrimizi bu məlun bəniadəmə açıb deyir.

Raki: – Yavaş, ata.

Qərib: – Şahım, belə çıxır ki, insan ağlının möcüzələri əbədidir. Sehir, cadu isə... Bir onu bilirəm ki, *İlxıçıdan, Çanaxçıdan* və *Topçudan* yaxşı cadugərlər peyda olur" ["Qərib cinlər diyarında", 1977].

Göründüyü kimi, bu toponimlərin mənasında da sənət, peşə anlayışı yaşamaqdadır. Güman ki, vaxtilə həmin yaşayış məntəqələrinin ilk sakinləri həmin peşə və sənətlə məşğul olmuşlar.

Maraqlıdır ki, Azərbaycan antroponimik sistemində bu şəkilçi ilə düzələn şəxs adına rast gəlinmir. Bəzən həmin şəkilçi ilə düzələn peşə, sənət bildirən sözlər ləqəbə çevrilir. Məsələn, *Dəmirçi Musa, İlxıçı Kərəm, Neftçi Qurban* və s.

"Tunc Vəli: – Nəbi qağa, uşaqların patronu azalır.

Nəbi: – Yaralanan yoxdur ki? *Dəmirçi Musa* və *İlxıçı Kərəmə* de ki, Sarı qaya tərəfə gəlsin" ["Qaçaq Nəbi", 1980].

4. *-ış (-iş, -uş, -üş) şəkilçisi.*

Dilimizin lüğət tərkibindəki düzəltmə sözlərin müəyyən hissəsi bu şəkilçinin köməyi ilə əmələ gəlmişdir. Məsələn: *gör+üş – görüş, ba+xış – baxış, al+ış-ve+riş – alış-veriş, ged(t)+iş-gəl+iş – gediş-gəliş, vur+uş – vuruş, yar+ış – yarış, dur+uş – duruş* və s. Bu şəkilçinin xarakterik

cəhəti onun məhsuldar olmasıdır. Onomastik leksikada bu şəkilçi az miqdarda oxşama və əzizləmə mənalı şəxs adları yaradır. Məsələn, ad+ış>*Adış,* göy+üş>*Göyüş,* gül+üş>*Gülüş,* nur+uş>*Nuruş* və s.

"Qoca aktyor: – Əhməd, bu da sənin mətnin... Xahiş edirəm meyxana deyəndə ritmə fikir verin, içində əruznan olanı da var...

Əhməd: – Sənin üçün nə var. Amma *Göyüş, Adış* və *Nuruş* da mator kimi deyir" ["Qəzəlxan", 1991].

"Asifin atası: – Salam hamınıza. *Şövqiyə, Şıxıya, Nuruya, Sidqiyə, Fəxriyə, Tutiyə, Mehriyə* və *Güllüyə* xüsusi salamlar!

Asif: – Ata, uşaqlarla axşam bir yerə yığışmalıyıq" ["Dərs", 2015].

5. *-ı (-i, -u, -ü) şəkilçisi.*

Kino dilində bu formant həm leksik, həm də qrammatik şəkilçi vəzifəsində çıxış edir. Qrammatik şəkilçi kimi ismin təsirlik və III şəxs mənsubiyyət şəkilçisi vəzifəsini daşıyır. Leksik şəkilçi kimi feildən isim (məsələn, yaz+ı – *yazı,* dol+u – *dolu* və s.), sifətdən isim (məsələn, turş+u – *turşu,* şirin+i – *şirni* və s.), isimdən sifət (məsələn, armud+u – *armudu*, şabalıd+ı – *şabalıdı*, xəzər – *xəzri* və s.), sifətdən feil (turş+u – *turşumaq*, bayat+ı – *bayatımaq* və s.) əmələ gətirir. Bütün bunlarla yanaşı, *-ı (-i, -u,-ü)* şəkilçisi onomastik vahidlərin əmələ gəlməsində də bir leksik formant kimi çıxış edir. Bu, xüsusilə Azərbaycan antroponimik sistemində *özünü göstərir. Məsələn,* pir+i>*Piri,* şövq+i>*Şövqi,* şıx+ı>*Şıxı,* nur+u>*Nuru,* sidq+i>*Sidqi,* şəms+i>*Şəmsi*, fəxr+i>*Fəxri* (Kişi adları), dost+*Dostu,* tut+u>*Tutu,* gül+ü>*Gülü,* mehr+i>*Mehri,* zər+i>*Zəri* (qadın adları), nizam+i>*Nizami*, zaqan+i>*Xaqani* və sair.

6. *-ım (-im, -um, -üm) şəkilçisi*

Bu şəkilçi də dilimizdə omonim şəkilçi kimi, leksik və qrammatik funksiyalara malikdir. Belə ki, onun əsas qrammatik funksiyası I şəxsin mənsubiyyət şəkilçisi kimi çıxış etməsidir. Məsələn, kitab+ım – *kitabım,* qələm+im – *qələmim,* yol+um – *günüm* və s.

"Leyli: – Vahid, bəs mənim tekstim...

Vahid: – Sən əvvəl soruş ki, mənim *kitabım, qələmim* hanı? Səni deyəsən burda qoyub gedəsi olacağıq. Onunçün sənə yazmıram" ["Qəzəlxan", 1991].

Bundan başqa, həmin şəkilçi həm də şəxs sonluğu funksiyasını daşıyır. Məsələn, al+ım – *alım*, gəl+im – *gəlim*, otur+um – *oturum*, gör+üm – *görüm* və s.

"Ferma müdiri: – Uşağınızın dərdinə bir əncam eləyin. İşləmir, heyvanların dərdi vecinə deyil. Belə getsə Qasımı fermadan qovacağam".

Miriş: – Heyvanların dərmanların *alım, gəlim,* sonra danışarıq" ["Kişi sözü", 1985].

Leksik şəkilçi kimi *-ım (-im, -um, -üm), bəzən -ın (in, -un, -ün)* şəkilçisinin bir variantı kimi çıxış edir) [3, s. 194]. Məsələn, dər+im – *dərim*, at+ım – *atım*, iç+im – *içim*, bük+üm – *büküm* və sair.

"Əlabbas: – Dəniz qırağında *görüm* pərini...
Çıxarım *dəsmalı,* silim *tərini*...
İndiki qızlarsa döyür ərini
Ay can alan, candır bizim Vər batan!..
Canlara dərmandır bizim Vər batan!.. ["Yuxu", 2001].

Azərbaycan dili onomastik sistemində bu şəkilçi ilə şəxs adları əmələ gəlir. Məsələn, gül+üm>*Gülüm,* bəy+im>*Bəyim*, xan+ım>*Xanım*, pir+im>*Pirim* və s.

Hacı Həsən: – Şeyxanə, bir qələtdir eləmişəm!

Doğrusu, övladlarımdan üzüm qaradır. Amma Şeyx Əhmədin övladlarına sözüm yoxdur. İstər *Bəyim* olsun, istərsə də *Pirim* və *Xanım.*

Şeyx Nəsrullah: – Hacını oğlu da burada, camaat içindədir?" [Ölülər, 1980].

7. *-cıq (-cik, -cuq, -cük) şəkilçisi.*

Azərbaycan dilində bu şəkilçi sözlərə qoşularaq kiçiltmə mənasını bildirən isimlər əmələ gətirir. Məsələn, təpə+cik – *təpəcik,* dərə+cik – *dərəcik,* ev+cik – *evcik* və s. Dilimizdə eynilə həmin mənada olan bir sıra sözlər xüsusi ad formasında da işlənir. Məsələn, şəkər+cik>*Şəkərcik,* qara+cıq>*Qaracıq,* qala+cıq>*Qalacıq* və sair.

"Leyli: – A... utanmaz! O nə sözdür danışırsan... Mən nə *Qalacıqdan* deyiləm, nə də *Şəkərcikdən.*

Vahid: – Daha qaranlıqdır, gözüm görmür. Evdə yazıb verərəm sənə" ["Qəzəlxan", 1991].

8. *-ıstan (-istən, -ustan, -üstən) şəkilçisi.*

Bu şəkilçi Azərbaycan onomastik sistemində xalis topoformant kimi tanınmışdır. Onun vasitəsilə həm bir sıra Azərbaycan toponimləri, məsələn, Talıstan, Xındırıstan həm də başqa regiona məxsus toponimlərin Azərbaycan dilinə məxsus variantı – məsələn, Macarıstan, Yunanıstan, Hindistan, Əfqanıstan Monqolustan, Özbəkistan, Gürcüstan, Qırğızıstan, Qazaxıstan və s. əmələ gəlmişdir.

9. *-an(-ən) şəkilçisi.*

Bu şəkilçi Azərbaycan dilində, əsasən, feili sifət şəkilçisi kimi tanınır. S.Cəfərov bu cəhətdən onu qrammatik leksik-şəkilçi adlandırır. Eyni zamanda onun substantiv və atributiv isimlər əmələ gətirdiyini göstərir. Məsələn, qapan, qalxan, ayran, günəbaxan, əlüzyuyan və s. Dilimizdə *-an(-ən)* şəkilçisi onomastik vahidlərin tərkibində özünü leksik şəkilçi kimi göstərir. Məsələn, *İnəkboğan, Arıqıran, Xankeçən, Daşkəsən, Çərçiboğan, Çayqovuşan, Körpüsındıran, Şahsevən* – toponimlər, *Alışan, Qaytaran* – antroponimlər, *Köpəkölən gölü, Camışbatan göl, Keçibatan, Ceyranbatan* – hidronimlər.

Kino dilində bu şəkilçi ilə düzələn onomastik vahidlər, əsasən, mürəkkəb quruluşa malik olur və təsviri xarakter daşıyır. Yəni hər hansı bir hadisə, hərəkət və ya yer adı, ya şəxs adı, ya da hidronim formasında substantivləşir.

10. *-ar (-ər) şəkilçisi.*

Bu şəkilçi də omonim olub, əsasən, dilimizdə feili sifət və qeyri-qəti gələcək zaman şəkilçisi vəzifələrində çıxış edir. Dilimizin onomastik leksikasında da bu şəkilçiyə rast gəlinir: feil kökünə bitişdirməklə xüsusi ad əmələ gətirir. Məsələn, *yaşa+r>Yaşar, yet+ər>Yetər, gül+ər>Gülər, an(maq)+ar>Anar, sev+ər>Sevər* və s.

"Asifin atası: – Anan dedi ki, bu gün Teymurun dalınca sən gələcəksən.

Asif: – Nə olsun,? Bizə keşik çəkirsən? *Yaşarı* da mən götürəcəyəm, üstəlik *Yetəri, Güləri, Anarı* və *Sevəri* də..." ["Dərs", 2015].

11. *-lar (-lər) şəkilçisi.*

Bu şəkilçi dilimizdə, əsasən, cəmlik bildirən qrammatik forma kimi tanınmışdır. Lakin *-lar (-lər)* eyni zamanda onomastik leksikada sözdüzəldən şəkilçi kimi çıxış edir.

"S.Mollazadənin tədqiqatında həmin şəkilçi ilə əmələ gələn toponimlərin 7 qrupu verilir" [4, s. 158].

Başqa türk dillərində, o cümlədən özbək dilində də bu qrammatik hadisə mövcuddur.

"S.Cəfərov həmin şəkilçinin 3 müxtəlif məna çalarına malik substantiv isimlər əmələ gətirməsini göstərir. Bunlardan biri də xüsusi şəxs və məkan adlarıdır" [3, s. 126].

Onomastik leksikada *-lar (-lər)* aşağıdakı söz qruplarının əmələ gəlməsində iştirak edir.

a) Toponimlər. Məsələn, *qul+lar>Qullar, rza+lar>Rzalar, qurd+lar>Qurdlar, kürd+lər>Kürdlər, molla+lar>Mollalar, qalay+çı>lar>Qalayçılar, kosa+lar>Kosalar, ilxı+çı+lar>İlxıçılar, talış+lar>Talışlar, İsa+lar>İsalar, şiş+papaq+lar>Şişpapaqlar, boz+papaq+lar>Bozpapaqlar, Balı+lar> Balılar//Ballar, tat+lar>Tatlar, bi+nə+lər>Binələr, hacı+lar>Hacılar, dəli+lər>Dəlilər, qır+lar>Qırlar, Sar+van>Sarvanlar, rənc+bər+lər>Rənc-bərlər, bilə+b+çi+lər+Dilənçilər, sərkar+lar>Sərkarlar, darğa+lar>Darğalar, piyada+lar> Piyadalar, ərəb+lər>Ərəblər və s.*

Baxaq görək bu toponimlərdən kinofilmlərdə necə istifadə olunur?

"Tunc Vəli: – Nəbi kirvə, *Qulları* qoşun tutub.

Nəbi: – Deyəsən bizi satıblar. *Qullar* yolunu çox az adam bilirdi. Bəs *Qurdlar, Kürdlər, Mollalar, Qalayçılar, Kosalar, İlxıçılar*, bir də İsalar yolu nə yerdədir?

Tunc Vəli: – Yox, o kəndlərin yolları salamatdır" ["Qaçaq Nəbi", 1980].

"Akşad: – Yenə orada nə pıçıldayırsan?

Qaraşad: – Sizə dua edirəm şahım.

Qərib: – *Şişpapaqların, Tatların, Bunələrin, Hacıların və Qırların* cinləri gərək gecə-gündüz işləsin. Böyük çala qazsın, sonra çayların suyunu o yerlərə axıtsınlar" ["Qərib cinlər diyarında", 1977].

b) Antroponimlər. Məsələn, *xan+lar>Xanlar, bəy+lər>Bəylər, şah+lar>Şahlar, ağa+lar>Ağalar* (kişi adları). Qadın adlarının yaranmasında bu şəkilçiyə təsadüf edilmir.

"Bahar: – Bu nədir belə, hamı besedkaya...

Əlabbas: – Mən də *Xanlar, Bəylər, Ağalar* və *Şahlar* dayılarıma oxşamışam. Gəl deyərsən gələrəm, get deyərsən gedərəm" ["Yuxu", 2001].

c) Hidronimlər. Məsələn, *tat+lı+lar>Tatlılar çayı, qoz+lar>Qozlar bulağı, türk+lər>Türklər bulağı, qız+lar>Qızlar bulağı, yekə+baş+lar>Yekəbaşlar gölü* və s.

"Ələmdar: – Yəni ki, sən nə danışırsan Sarı? Qasım heyvanların dərmanlarını tanımır? Axşam dağdakı *Qızlar* və *Yekəbaşlar* bulaqlarına gedəcək. Mal-heyvan oradadır.

Nübar: – Əlbəttə, Qasımın bilmədiyi şey yoxdur" ["Kişi sözü", 1985].

ç) Zoonimlər. Məsələn, *boz+lar>Bozlar.*

Ümumiyyətlə, onomastik vahidlərin yaranmasında *-lar (-lər)* sırf onoformant kimi fəal iştirak edir.

12. *-laq (-lək) şəkilçisi.* Dilimizdə bu şəkilçi vasitəsilə məkan, yer mənasını bildirən isimlər əmələ gəlir. Məsələn, çay+laq, buz+laq, qış+laq, yay+laq, qum+laq, ot+laq, duz+laq və s. Həmin isimlər bəzən Azərbaycan onomastik sistemində xüsusi ad kimi də işlənir. Məsələn, *Aydın+qış+laq>Aydınqışlaq çayı, yal+qış+laq>Yalqışlaq, qış+laq>Qışlaq, qum+laq>Qumlaq* və s.

"Hacı Həsən: – Xeyr cənab Şeyx, xəcalətindən sizi görəcək qaçıb gedib *Aydınqışlağa,* oradan da dostuna qoşulub *Yayqışlağa* üz tutub.

Şeyx Nəsrullah: – Yolunu azmış insanı həqq yoluna gətirmək, hər bir müsəlmana vacibdir" ["Ölülər", 1980].

Bu şəkilçi Azərbaycan onomastik sistemi üçün o qədər də xarakterik deyildir.

13. *-maz(-məz) şəkilçisi.*

Bu şəkilçi mənşəcə iki şəkilçinin birləşməsindən əmələ gəlmişdir: inkarlıq bildirən *–ma (-mə)* və qeyri-qəti gələcək zaman şəkilçisi olan *-ar (-ər// -az// -əz).* Həmin şəkilçi ilə yaranan xüsusi adların semantikasında da bu özünü göstərir. Məsələn, *qorx+maz>Qorxmaz, dön+məz>Dönməz, sol+maz>Solmaz* və s.

"Vahid: – Bir xəndəklə iş düzəlməz. Amma ürəyivü buz kimi saxla. *Dönməznən Qorxmaz* deyir ki, Hitlerin atasını yandıracağıq. Əhməd, Leyli hanı?

Əhməd: – Mirzə bilər yerini" ["Qəzəlxan", 1991].

14. *-ça (-çə) şəkilçisi.*

Bu şəkilçi ancaq leksik funksiyaya malik olub, kiçiltmə mənasını əmələ gətirir. Məsələn, kəl+çə – *kəlçə,* göl-mə-çə – *gölməçə,* qazan+ça – *qazança,* kitab+ça – *kitabça,* dəftər+çə – *dəftərçə*. Onomastik leksikada da bu şəkilçi eynilə həmin semantik xüsusiyyətə malik toponimlər yaradır. Məsələn, qala+ça>*Qalaça.*

"Ələmdar: – Bəlkə dədə-baba qaydasıyla gedək Nəbinin qapısına. Ordan da *Qalacaya.* Deyirlər *Qalacada* yaxşı cins heyvanlar var" ["Kişi sözü", 1985].

15. *-ca (-cə) şəkilçisi.*

Həmin şəkilçi fərqli xüsusiyyətlərə malikdir. Onomastik sistemində bu şəkilçi az da olsa, xüsusi adlar əmələ gətirir. Məsələn, qızıl+ca>*Qızılca,* yeni+cə>*Yenicə,* yeng(i)+cə>*Yengicə,* yarım+ca>Yarımca, Əyri+cə, abil+ca>Əbilcə, gül+lü+cə>Güllücə, Bal+lı+ca>Ballıca; – toponimlər: ağ+ca>Ağca, qara+ca – Qaraca, bala+ca>Balaca, göy+çə>Göyçə, bircə+xanım> Bircəxanım və s. şəxs adları.

"Qaraşad: – Görürsən bu iblisin özünə papaq tikən bəniadəm nələr eləyir? *Yengicə, Yarımca* və *Ballıcadan* danışıqlarını demirəm.

Raki: – İki kəlmə məsləhət verir durur qıraqda. Hər işi cinlərlə gördürüb ad qazanır" ["Qərib cinlər diyarında", 1977].

Cavan zabit: – Zati-aliləri, yuxarılarda atəş seyrəlir. Əmriniz?

Səlim bəy: – Hələ tələsməyək. Kənddə hələ ki, Qaraca da qalıb, qadınlardan *Balaca, Bircəxanım* da" ["Qaçaq Nəbi", 1980].

"Bahar: – Sizdən isə hörmətli "Tır-tır" rekordçusu, xahiş olunur ki, uşaqları başınıza yığmayasınız. Sizin bu "yüksək ruhlu folklorunuz" *Yalçın, Elçin* və *Gülçinin* yaş xüsusiyyətlərinə heç cür uyğun gəlmir" ["Yuxu", 2001].

16. *-çın(-çin) şəkilçisi.*

Azərbaycan dilçiliyində bu şəkilçi barədə çox az söhbət gedir. Halbuki hətta onomastik leksikada da ona rast gəlmək olur. Məsələn, yal+çın>*Yalçın,* el+çin>*Elçin,* gül+çin>*Gülçin.* Dilimizdə son hecası bu şəkilçi ilə bitən bir sıra sözlər vardır. Məsələn, *bildirçin, sığırçın, göyərçin* və s. Görünür, dilimizdə belə bir şəkilçinin mövcudluğu qanunauyğun haldır.

17. *-qın (-ğın) şəkilçisi.*

Bu şəkilçi silimizin morfoloji quruluşunda feillərə qoşularaq bir neçə variantda işlənir: ***-qın, -kin, -qun, -kün, -gun, -gün.*** Məsələn, *sat+qın – satqın, bit+kin – bitkin, tut+qun – tutqun, öt+gün – öygün, yan+ğın – yanğın, əz+gin – əzgin, yor+ğun – yorğun, süz+gün – süzgün* və s.

Dilimizin onomastik sistemində, az da olsa, bu şəkilçiyə təsadüf edilir. Məsələn, daş+qın>*Daşqın*, vur+ğun>*Vurğun*, coş+qun>*Coşqun* və s.

"Vahid: – Qədeş... Mirzə qədeş... Bu qız hardadır?

Qoca aktyor: – *Daşqınla Coşqun* bilər. Bir də nəyinə gərəkdir, yıxıl yat.

Vahid: – Yox, çıxım baxım hardadır..." ["Qəzəlxan", 1991].

18. *-ə şəkilçisi.*

Bu onomastik formant mənşəyinə görə alınmadır. Belə ki, Azərbaycan dilində cins kateqoriyası yoxdur. Lakin bu şəkilçi dilimizdə cins anlayışı bildirmək əsasında yeni xüsusi adlar əmələ gəlmişdir. Məsələn,

Ümumi sözlər	**Xüsusi adlar**	
	Kişi adı	Qadın adı
sahib	*Sahib*	*Sahib+ə*
natiq	*Natiq*	*Natiq+ə*
zabit	*Zabit*	*Zabit+ə*
arif	*Arif*	*Arif+ə*
nazir	*Nazir*	*Nazir+ə*

Göründüyü kimi, Azərbaycan dilində *-ə* şəkilçisi vasitəsi ilə xüsusi sözdən, əsasən, kişi şəxs adından qadın adı bildirən antroponimik vahidlər yaranır. Səlim+ə>*Səlimə,* Rəhim+ə>*Rəhimə,* Həmid+ə>*Həmidə,* Lətif+ə>*Lətifə,* Əziz+ə>*Əzizə,* Adil+ə>*Adilə,* Rövşən+ə>*Rövşənə,* Azad+ə>*Azadə,* Rəfiq+ə>*Rəfiqə,* Hafiz+ə>*Hafizə,* Cavid+ə>*Cavidə,* Nəsib+ə>*Nəsibə,* Zahid+ə>*Zahidə,* Atif+ə>*Atifə,* Kamil+ə>*Kamilə,* Həbib+ə>*Həbibə,* Rəşid+ə>*Rəşidə,* Rahib+ə>*Rahibə,* İlham+ə>*İlhamə,* Mənsur+ə>*Mənsurə,* Tofiq+ə>*Tofiqə,* Şaiq+ə>*Şaiqə,* Naib+ə>*Naibə,* Mahir+ə>*Mahirə,* Nazim+ə>*Nazimə* və s. bu yolla yaranmışdır.

Bədii və sənədli televiziya filmlərində yuxarıdakı antroponimlərin hər birindən kifayət qədər istifadə edilir.

"Asifin atası: – Bir dayan görüm! Niyə üzünü çevirib gedirsən?

Asif: – Səndən nümunə götürmüşəm. Qızların yanına gedirəm.

Asifin atası: – Kimlərin?

Asif: – *Səlimə, Rəhimə, Həmidə, Lətifə, Əzizə, Arifə, Rəşidə, Naibə, Mahirənin*" ["Dərs", 2015].

"Ə" şəkilçisi ilə qadın adı yaratmaq formasının regionu çox genişdir. Bu proses bizim dilimizdə olduğu kimi, başqa tük dillərində də geniş yayılmışdır. Hazırda aşağıdakı sözlər Azərbaycan dilində işləndiyi qaydada *tatar* və *başqırd* dillərində də eynilə istifadə olunur.

Kişi adı	**Qadın adı**
Kərim	Kərimə
Kamil	Kamilə

Zakir	Zakirə
Nadir	Nadirə
Tahir	Tahirə
Xalid	Xalidə
Şərəf	Şərifə və s.

Bu və ya bu tipli sözlərin bəzilərində ancaq kiçik fonetik fərqlər özünü göstərir.

Müasir Azərbaycan ədəbi dilində qadın adı yaratmaq halları da müşahidə edilir. Məsələn, Ulduz+ə>*Ulduzə,* Sevil+ə>*Sevilə,* Reyhan+ə>*Reyhanə,* Zərif+ə>*Zərifə,* Gülnar+ə>*Gülnarə,* Elnur+ə>*Elnurə* və s.

"Qaraşad: – Sus... Eşidən olar... Kimə?

Raki: – Sənin küpəgirən qarına.

Qaraşad: – Bəlkə *Reyhanə, Zərifə* və *Elnurəni* də bura qarışdıraq..." ["Qərib cinlər diyarında", 1977].

19. *-ş şəkilçisi.*

Bir fonemdən ibarət olan bu şəkilçi dilimizdə xüsusi ad yaratmaqda fəal iştirak edir və əzizləmə, oxşama mənalı şəxs adları əmələ gətirir. Məsələn, baba+ş>*Babaş,* qara+ş>*Qaraş,* nənə+ş>*Nənəş,* bala+ş>*Balaş,* Lələ+ş>*Ləläş,* Əti+ş>*Ətiş,* ata+ş>*Ataş,* əmi+ş>*Əmiş,* ana+ş>*Anaş* və s.

"Ələmdar: – A qızım, hey! Görürəm darıxırsan, bala, gətir o heyvanları qat bu naxıra, çıx get!

Qız: – Yox, *Babaşın, Qaraşın, Nənəşin* və *Ləläşin* mal-qarası fermanınkına qarışanda Ataş dayının acığı tutur" ["Kişi sözü", 1983].

Yuxarıda qeyd olunan şəkilçilərdən əlavə kino dilində bir sıra alınma şəkilçilərə rast gəlinir. Bunlardan *-iyyə* (Əhməd+iyyə>*Əhmədiyyə* hüsn+iyyə>*Hüsniyyə,* sidq+iyyə>*Sidqiyyə,* fəxr+iyyə>*Fəxriyyə,* şükr+iyyə>*Şükriyyə,* lütf+iyyə>*Lütfiyyə* və s.), *-əddin* (imam+əddin> *İmaməddin,* şəms+əddin> *Şəmsəddin,* sədr+əddin> *Şədrəddin,* fəxr+əddin> *Fəxrəddin,* camal+əddin> *Camaləddin* və s. –dar (el+dar>*Eldar,* sər+dar>*Sərdar,* vəfa+dar> *Vəfadar,* mehman+dar>*Mehmandar,* ələm+dar>*Ələmdar* və s.) şəkilçilərin izinə düşmək və onların dilimizdə nə dərəcədə işlək olduğunu aşkara çıxarmaq vacibdir.

1. kök+şəkilçi modeli.

Bu model *[k+ş]* bir kök və bir şəkilçidən ibarət olur. Bu modelə demək olar ki, kinofilmlərdə işlənən bütün xüsusi ad qruplarında rast gəlmək olur. Məsələn,

a) Antroponimlər: *Sev+il, Sev+inc, An+ar, Vur+ğun, El+dar, Gül+lü, Arif+ə, Lütf+iyyə* və s.

b) Toponimlər: *Dəvə+çi, Dəllək+li* (Masallı, Zəngilan), *Qul+lar* (Ağdaş, Balakən, Bərdə), *Qoz+lu,* (Laçın), *Qala+cıq* (İsmayıllı) və s.

c) Hidronimlər: *Alma+lıq* (Qafan rayonunda çay), *Buz+lu* (Xanlar rayonunda çay), *Bat+qız* (Cəlilabad rayonunda çay), *Qul+lar* (Balakən rayonunda çay), *Qayna+r* (Şəki rayonunda çay) və s.

ç) Kosmonimlər: *Araba+çı, Balıq+lar, Əkiz+lər, Yelkən, Naxır+çı* (bürc adları).

2. Kök+şəkilçi+şəkilçi modeli.

Bu model *[k+ş+ş]* birinciyə nisbətən xüsusi adların bir qismini əhatə edir. Məsələn, *Gül+lü+cə* (Ağdam), *Dəmir+çi+lər* (Qazax), *Qara+ca+lar* (Saatlı), *Baldır+ğan+lı* (Laçın), *Ballı+ca+lar* (Xankəndi), *Qarabağ+lı+lar* (Tovuz) və s.

Nəticə: Nəticə olaraq göstərmək lazımdır ki, kino dilində Azərbaycan dili onomastik vahidlərin morfoloji quruluşu hələ dilçiliyimizdə istənilən səviyyədə öyrənilməmişdir. Onomastik vahidlərin quruluşca növü ətraflı araşdırılmamış, tam sadə və tam mürəkkəb xüsusi adlar hələ dəqiq müəyyənləşdirilməmişdir. Sırf onoformant şəkilçilər zəngin faktlar əsasında aşkar olunmalıdır. Belə bir mühüm məsələnin həllinə, kino dilində uzunmüddətli və gərgin axtarışların nəticəsində nail olmaq mümkündür.

Ədəbiyyat siyahısı

1. Qurbanov A.M. Tədqiqatların yeni istiqamətləri. Azərbaycan onomastika problemləri. № 6. Bakı. 1996. s. 120.
2. Qurbanov A.M. Azərbaycan onomastikasının zəruri məsələləri. Azərbaycan müəllimi. 16 mart. Bakı. 1988. s. 126.
3. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. Azərnəşr. 1982. Bakı. s. 194.
4. Mollazadə S.M. Coğrafi adlar və Azərbaycan dilinin tarixi. Maarif. 1973. Bakı. s. 158
5. Гаджиева Н.З. Основные пути развития синтаксической структуры тюркских языков. Вести. 1971. Москва. 233 с.
6. Донидзе Г.И. Об аффиксальном словообразовании в тюркской мононимии. 1980. Вестник. Москва. 223 с.
7. Гейбуллаев Г.А. Топонимия Азербайджана. Элм. 1986. Баку. 277 с.

Bədii filmlər

1. “Girov”, 2003.
2. “Dolu”, 2012.
3. “Qoca palıdın nağılı”, 1984.
4. “Babamın babasının babası”, 1979.
5. “Buta”, 2004.
6. “Süd dişinin ağrısı”, 1987.
7. “Neft və milyonlar səltənətində”, 1982.
8. “Qırmızı bağ”, 2011.
9. “Qəzəlxan”, 1991.
10. “Qaçaq Nəbi”, 1980.
11. “Yuxu”, 2001.
12. “Kişi sözü”, 1985.
13. “Dərs”, 2015.
14. “Qərib cinlər diyarında”, 1977.
15. “Küçələrə su səpmişəm”, 2004.
16. “Ölülər”, 1980.

Физули Мустафаев

Ономастические единицы, образованные морфологическим методом в языке кино

Резюме

Статья посвящена ономастическим единицам, образованным морфологическим методом в киноязыке. Из исследования известно, что существуют разные мнения об образовании ономастических единиц морфологическим методом, то есть на основе корня и суффикса. Существуют разногласия по поводу того, есть ли в этих идеях специальные суффиксы, образующие существительные. Отмечается такая ложная тенденция, что образование топонимов полностью связано с чисто лексическими и семантическими явлениями. Никакой морфологический фактор здесь не играет роли.

Одной из главных задач нашего современного языкознания является исследование роли суффиксов в нашем языке в образовании других ономастических единиц, не являющихся топонимами, и рассмотрение создаваемых ими смысловых оттенков.

Как видно из исследования, до 80 процентов ойконимов на территории точнее 66 процентов, составлены на -lı (-li, -lu, -lü), 18 процентов с суффиксом -lı, 15 процентов с суффиксом -lar(-s). Этот факт показывает, что эти суффиксы играют продуктивную роль в ономастической лексике нашего языка. Изучение имеющихся языковых фактов показывает,

что в азербайджанской ономастической системе имена собственные содержат достаточно суффиксов.В ходе исследования выясняется, что различные виды суффиксов играют активную роль в образовании ономастических единиц, несущих продуктивное словотворчество в общей лексической системе нашего языка. Как формант, образующий имя собственное, эти суффиксы более распространены в ареале тюркских языков, особенно в юго-западной части этого ареала.В статье использовано много научной и художественной литературы, а также различные монографии.

Ключевые слова: *ономастика, морфологическая, лексико-грамматическая, орфоэпическая, синтаксическая, семантическая.*

Fizuli Mustafayev

Onomastic units formed by the morphological method in the language of cinema

Summary

The article is devoted to onomastic units formed by the morphological method in film language. It is known from the study that there are different opinions about the formation of onomastic units by the morphological method, that is, on the basis of the root and suffix. There is controversy over whether these ideas have special noun-forming suffixes. Such a false tendency is noted that the formation of toponyms is completely connected with purely lexical and semantic phenomena. no morphological factor plays a role here.

One of the main tasks of our modern linguistics is to study the role of suffixes in our language in the formation of other onomastic units that are not toponyms, and consider the semantic shades they create.

As can be seen from the study, up to 80 percent of oikonyms in the region, 66 percent are composed in -lı (-li, -lu, -lü), 18 percent are composed in -ı, 15 percent with -lar(-s) suffixes. This fact shows that, these suffixes play a productive role in the onomastic vocabulary of our language. The study of the available linguistic facts shows that proper nouns contain enough suffixes in the Azerbaijani onomastic system.

In the course of the study, it turns out that various types of suffixes play an active role in the formation of onomastic units that carry productive word creation in the general lexical system of our language. As a formant that forms a proper name, these suffixes are more common in the area of the Turkic languages, especially in the southwestern part of this area.

The article used a lot of scientific and fiction literature, as well as various monographs.

Key words: *onomastics, morphological, lexico-grammatical, orthoepic, syntactic, semantic.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor N.Seyidəliyev***
dosent S.Quliyeva